Respublika.- 2019.- 31 yanvar.- S.6

# Kamil qələm sahibi, gözəl insan...



"Gözümüz aydın olsun, dostlar, Davud Dəmirli həyatın hər cür sınaqlarından və sıxıntılarından sağ-salamat, alnıaçıqlıqla çıxıb ömrünün kamillik zirvəsinə yetişdi, özü də necə bəxtəvərliklə — səmimi, möhkəm ailəsi, sədaqətli həmkarları, cilalanmış qələmi, qətiyyətli xasiyyəti və yorulmaz iş qabiliyyəti öz yerində, hələ bir, üstəlik 60! Bundan yaxşı nə ola bilər?"

Doğrudan da bundan yaxşı heç nə ola bilməz. Azərbaycan mətbuatının sayılıb-seçilən nümayəndələrindən olan Davud Dəmirlinin altmış illik yubileyi münasibətilə yazıçı Oqtay Salamzadənin qələm dostuna ünvanladığı təbrik məktubunu oxuduqca dəyərli bir ömür yaşayan, sözün həqiqi mənasında sadə və təvazökar, ədəbi yaradıcılığın ən pik nöqtəsinə ucalan qocaman həmkarımızın həyat yolu yavaş-yavaş göz önündə canlanır...

Davud müəllim 1937-ci il iyunun 15-də Şəmkir rayonunun Düyərli kəndində doğulmuş, 1955-ci ildə elə orada orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə qəbul olmuş, 1958-ci ildə hələ tələbə ikən "Azərbaycan pioneri" qəzetində buraxıcı vəzifəsində əmək fəaliyyətinə başlamış, sonra təyinatla "Sovet kəndi" qəzetinə işə göndərilmişdi. İlk yazısı hələ beşinci sinifdə oxuyarkən "Azərbaycan pioneri" qəzetində dərc olunan Davud Dəmirli elə o vaxtdan jurnalist olmaq qərarına gəlmiş və bu arzusunu gerçəkləşdirmişdi. "Sovet kəndi" qəzeti onun üçün əsl təcrübə məktəbi olmuşdu. Respublikanın kənd təsərrüfatı ilə bağlı problemlərindən yazdığı yazılarla burada yaradıcılıq pillələrini tez bir zamanda qalxaraq ədəbi işçi, xüsusi müxbir, şöbə müdiri və s. vəzifələrə yüksəlmişdi.

Davud Dəmirli hələ o vaxtlarda qələmini bütün janrlarda sınayırdı. Respublikanın ədəbi və elmi ictimaiyyəti, geniş oxucu kütləsi onun oçerk, hekayə və felyetonlarını, elmi məqalələrini, publisist yazılarını maraqla oxuyur, bu istedadlı jurnalistin çıxışını səbirsizliklə gözləyirdi. O, bu mətbu orqanda nə az, nə çox, düz 17 il işləmiş, həmin illərdə hekayələr kitabı işıq üzü görmüş, bütün bu məziyyətlərinə görə 1972-ci ildə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatına layiq görülmüşdü.

Yorulmaq bilmədən çalışan, daim öz üzərində işləyən Davud müəllim elmi fəaliyyətlə də məşğul olurdu. 1974-cü ildə "Yusif Vəzir Çəmənzəminlinin etik görüşləri" mövzusunda namizədlik dissertasiyası da səmərəli axtarışlarının, faydalı tapıntılarının nəticəsi idi. Fəlsəfə elmləri namizədi kimi elmi ada layiq görülən Davud müəllim üçün bundan sonra daha bir yeni fəaliyyət istiqaməti müəyyənləşmişdi. Belə ki, o, 1978-ci ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitetdə) müəllim kimi fəaliyyətə başlamış, 1982-ci ilə qədər bu ali təhsil ocağında çalışmış, uzun illər Azərbaycan Beynəlxalq Universitetinin Elmi Şurasının fəxri üzvü olmuşdu. Bir müddət "Azərbaycan məktəbi", "Azərbaycan kommunisti" jurnallarında şöbə müdiri işləyən Davud Dəmirli 1986-cı ildə "Kənd həyatı" jurnalının baş redaktoru təyin olunur. Bu onun həyat yolunun ağrılı, həm də məsul bir dövrü idi. Eyni yükü o, "Həyat" qəzetində işlədiyi dövrdə də yaşamalı olur, çünki "Həyat"ın öz həyatı da həmin dövrlərdə olduqca məşəqqətli idi. Şöbə müdiri kimi həddən artıq çox işləyir, mənzum felyetonlar dərc etdirirdi. Həyatın hər bir sahəsini əks etdirən bu felyetonlarda özünü cəsarətli, saf əqidə sahibi, iti qələmli jurnalist kimi bir daha təsdiqləyir, ictimai-siyasi hadisələrə vətəndaş mövqeyini heç nədən çəkinmədən bildirirdi. Onun "Kotan", "Pürrəng çay içə-içə", "Əkinçi Nəsrəddin", "Altı günün biri şənbə" kimi satira və yumor guşələrində dərc etdirdiyi felyetonlar çoxlarının ürəyinə yol tapır, fikrini qanadlandırır, bəd əməllərini islah edirdi. Bir sözlə, o, böyük ustalıqla əvvəlki gülüş ənənəmizi yaşadırdı.

1991-ci ildən "Açıq söz" qəzetinin sükanı arxasında "ikinci kapitan", yəni redaktor kimi fəaliyyəti də su içimi kimi asan olmamışdı, amma onun üçün fərəhli, qürurgətirici idi, çünki yaradıcı, axtarışlarla dolu, zəngin bir dövr olmuşdu. Onun "Fəzilət" qəzetinin təsisçisi və baş redaktoru kimi fəaliyyəti də xüsusi qeyd olunmalıdır.

Davud Dəmirlinin yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tuturdu. Təsadüfi deyildir ki, o, həmin mövzuda olan yazılarına görə 1994-cü ildə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqının "Qoy, xalqımız zəfər çalsın" fəxri diplomuna layiq görülmüşdü. "Vətən imtahan verir", "İki qonşunun düşməni", "Hara gedirik?", "Yaşayır Azərbaycan", "Azadlıq - şirin sözdür", "Bir qarış torpaq" və s. şeirlərində bədxah qonşularımızın nankorluğunu, onlara havadarlıq edən qüvvələrin ikiüzlülüyünü, Qarabağ probleminə dünya miqyasında ikili yanaşmanın acı nəticələrini ürək yanğısı ilə qələmə alır, "sapı özümüzdən olan baltalar"ı da tənqid atəşinə tuturdu. 1992-ci ildə Təbriz və Ərdəbil şəhərlərində soydaşlarımızla görüşdən təsirlənərək qələmə aldığı "Yaşayır Azərbaycan" şeirində narahatçılıq dolu suallara cavab olaraq yazırdı:

*Xuraman ismətlidir, yaşayır*
*Azərbaycan,*
*Amma bəxti gətirmir xain*
*qonşu sarıdan.*
*İşığa tapınıbdır torpağımın*
*hər yeri,*
*Gecənin əzabına dözən*
*açar səhəri.*
*Bir xeyiri yıxammaz*
*Əhrimənin min şəri,*
*Günü qara olsa da xain*
*qonşu sarıdan,*
*Yaşayıb, yaşayacaq,*
*yaşayır Azərbaycan!*

Onu yaxından tanıyanlar Davud müəllimə kövrək duyğulu insan, yaxşı dost, böyük qardaş, müdrik ağsaqqal kimi də dərin hörmət bəsləyirdi. 1987-ci ildə 50 illik yubileyi ilə bağlı "Kənd həyatı" jurnalının kollektivinin təbrik məktubundakı fikirlər də dediklərimizi bir daha təsdiqləyir: "Ömrünüzün yeni bir aşırımında siz bir boy da böyüyürsünüz, bir az da kamilləşir, müdrikləşir, sadələşirsiniz, qəleminizin kəsəri, sözünüzün sanbalı artır. Və hər şeydən əvvəl, bizə, dünyaya, insanlara, sizi özünə "çıraq" sanan bu kiçik kollektivə bir addım da yaxınlaşır, qaynayıb-qarışır, doğmalaşırsınız..." Onu işlədiyi bütün kollektivlərdə bax elə bu cür sevir, bu cür dəyərləndirirdilər. İnsan üçün bundan böyük xoşbəxtlik yoxdur.

Şair, yazışı-jurnalist, alim Davud Dəmirli Azərbaycan KİVİHİ-nin H.Z.Tağıyev, "Araz" ali ədəbi mükafatlarının da sahibi idi. Onu da qeyd edək ki, həyatının sonuna qədər Azərbaycan KİVİHİ-nin H.Z.Tağıyev adına xeyriyyəçiliyin təbliği mərkəzinin məsul katibi vəzifəsini də ləyaqətlə icra etmişdir Davud müəllim.

Gözəl ailə başçısı olan Davud müəllim həyat yoldaşı Svetlana xanımla iki övlad böyütmüşdü, sevimli baba idi.

Bu dünyada hər kəs öz taleyini yaşayır, əbədi dünyaya köçərkən özündən sonra nələrisə qoyub gedir. Ona verilmiş bir ömür payında isə milli mətbuatımızın sayılıb-seçilən nümayəndələrinin sırasına öz adını yaza bildi: Davud Dəmirli...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**